# Minimum əməkhaqqı artımı ümumi rifahı yüksəldəcək



## Bununla iqtisadi sektorlarda maaşlar da artacaq

**İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi dövlət başçısının "Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində tədbirlərin davam etdirilməsi haqqında" Sərəncamı ilə 2025-ci ilin yanvar ayından reallaşan növbəti sosial islahatlara həsr olunan "İslahat icmalı" hazırlayıb.**

Mərkəzin iqtisadi təhlil şöbəsinin müdir müavini Elnur Ələkbərov bununla bağlı bildirib ki, 3 milyon nəfəri əhatə edəcək sosial paket 2019-cu ildən indiyədək qəbul edilən 5-ci sosial islahat zərfidir. Yeni sosial paket əvvəlki islahatların məntiqi davamı olaraq əhalinin sosial müdafiəsinin gücləndirilməsi və rifahının yaxşılaşdırılması məqsədi daşıyır. Sosial islahatlar əməkhaqqı artımlarını, pensiya, sosial müavinət və təqaüdlərin artırılması tədbirlərini nəzərdə tutur.

Elnur Ələkbərovun sözlərinə görə, ümumilikdə, bu islahatlar çərçivəsində 700 min və daha çox vətəndaş əməkhaqqı, təxminən, 1,1 milyon nəfər pensiya, 1,2 milyon nəfər isə sosial müavinət və təqaüd artımlarından faydalanacaq. Bu tədbirlər daha çox aztəminatlı ailələr üçün əhəmiyyətli olacaq, onların maddi vəziyyətinin yaxşılaşdırılmasına müsbət təsir göstərəcək və müxtəlif iqtisadi sektorlarda orta aylıq nominal əməkhaqlarının yüksəlməsinə səbəb olacaq.

Qeyd edək ki, Prezident İlham Əliyev ötən il dekabrın 23-də "Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində tədbirlərin davam etdirilməsi haqqında" Sərəncam imzalayıb. Sənədə əsasən, Azərbaycanda minimum aylıq əməkhaqqının məbləği yanvarın 1-dən 400 manat müəyyən edilib.

Minimum aylıq əməkhaqqının məbləği 2023-cü il yanvarın 1-dən adıçəkilən sərəncam imzalananadək isə 345 manat olub.

***XQ***

Xalq qəzeti .- 2025.- 10 yanvar (№ 04). - S.6.